

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 58 (22.969)

*31 mart 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbəri xanım Korin Yonkeri qəbul edib.

Söhbət zamanı Azərbaycanda qarşıdan gələn prezident seçkilərinin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev seçkilərin demokratik, seçki qanunvericiliyinə uyğun şəkildə keçiriləcəyinə, ədalətli və şəffaf olacağına və Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə edib.



## Naxçıvanda azərbaycanlıların soyqırımının 100-cü ildönümü qeyd edilmişdir

Martın 30-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümü ilə əlaqədar tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov abidə önünə gül qoymuş, soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad etmişdir.





Nazirlik, komitə, idarə, müəssisə və təşkilatların rəhbərləri, hərbi hissələrin komandirləri, ictimaiyyətin nümayəndələri də abidə önünə gül qoymuşlar.

Sonra soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 18 yanvar tarixli Sərəncamına əsasən bu günlər ölkəmizin hər yerində 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi qeyd olunur. Azərbaycanlılara qarşı törədilmiş soyqırımlar barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə çatdırılması məqsədinə xidmət edən Sərəncamda qeyd olunur ki, ***"Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl – 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir".***

Ali Məclisin Sədri demişdir: Azərbaycan xalqının tarixində soyqırımı kimi siyasi və hüquqi qiymətini almış faciəli hadisələr öz başlanğıcını XIX əsrin əvvəllərindən götürür. 1828-ci ildən sonra Azərbaycan ərazisində ermənilərin kütləvi şəkildə məskunlaşdırılmasına başlanmışdır. Məqsəd Azərbaycan torpaqları hesabına Ermənistan dövlətinin yaradılması idi. Bunun üçün müxtəlif təzyiq formalarına əl atılmış, azərbaycanlılar öz ata-baba torpaqlarından deportasiya olunmuş, terror aktları, soyqırımlar törədilmiş, Azərbaycan xalqı etnik təmizlənməyə məruz qalmışdır. 1905-1907-ci illərdə Çar Rusiyası tərəfindən himayə olunan erməni millətçiləri azərbaycanlılara qarşı ilk genişmiqyaslı soyqırımı törətmişlər. Təxminən iki ilə yaxın davam edən qətliam nəticəsində 300-ə yaxın Azərbaycan kəndi dağıdılmış, 100 mindən çox azərbaycanlı öldürülmüşdür.



Qeyd olunmuşdur ki, 1918-ci ilin martında ermənilər məskunlaşdıqları Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədilə yenidən mənfur planlarını işə saldılar. Bakıda və qəzalarda on minlərlə dinc əhali qətlə yetirildi, memarlıq inciləri, məscidlər, məktəblər və digər mədəniyyət abidələri yandırılıb dağıdıldı. Görkəmli dövlət xadimi Nəriman Nərimanov ermənilərin törətdikləri qırğınlardan dəhşətə gələrək yazırdı: "Müsəlman hətta bolşevik olsaydı belə ona aman vermirdilər. Öldürülmək üçün müsəlman olmaq kifayət idi... Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verir, uşaqlara və hamilə qadınlara belə rəhm etmirdilər". O dövrdə Bakıda olan İngiltərə konsulu Mak Donell də yazırdı ki, şəhərdə cəsədlərdən başqa insan yox idi.

Ali Məclisin Sədri demişdir: Yüz il bundan əvvəl – 1918-1920-ci illərdə ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş ikinci soyqırımı həm miqyası, həm də vəhşiliyi etibarı ilə bəşəriyyət tarixində ən qanlı cinayətdir. Onun mahiyyətini başa düşmək üçün faktlara diqqət yetirmək kifayətdir: Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Zəngəzurda 115, Qarabağda 157, Qars əyalətində 92, İqdırda 60, Vedibasarda 118 Azərbaycan kəndi tamamilə dağıdılmış, əhalisinin əksəriyyəti öldürülmüşdü. O dövrdə azərbaycanlıların yaşadıqları elə bir ərazi yox idi ki, orada erməni talanı və vəhşiliyi həyata keçirilməsin. Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvanda da soyqırımlar törədilmişdir. Arxiv sənədlərindən aydın olur ki, 1910-cu ildə Naxçıvanda 146 min nəfər əhali yaşayırdısa, 1921-ci ildə burada yaşayanların sayı 74 min azalaraq 72 min nəfər olmuşdu. Azərbaycanın Ədliyyə Komissarı, görkəmli diplomat Behbud ağa Şahtaxtinski Azərbaycan İnqilab Komitəsinin 1921-ci il 19 aprel tarixli iclasında Naxçıvandakı vəziyyətə dair çıxışında bildirirdi ki, ermənilər Naxçıvan, Ordubad və Şərur-Dərələyəzdə 240 kəndi dağıdaraq xarabalığa çevirmiş, əhalisini öldürmüş, əmlaklarını qarət etmişlər. Rusiya Xalq Komissarları Sovetinin sədri Vladimir Leninə 1920-ci il 20 sentyabr tarixli məktubunda da Behbud ağa Şahtaxtinski erməni-rus qırğınlarından hiddətlənərək qeyd edirdi ki, "Naxçıvanda müsəlman əhali silahsızlaşdırılır, daşnakların silahlı dəstələri müsəlman kəndlərini amansızcasına doğrayıb tökür və məhv edirlər. Kəndlilər var-yoxlarını atıb dağlara çəkilirlər. Görmək çətin deyil ki, daşnakların davam edən hücumları şəraitində müsəlman əhalisinin fiziki cəhətdən mövcudluğu təhlükə altındadır". Xüsusi amansızlıqla aparılan soyqırımlara baxmayaraq, naxçıvanlılar düşmən qarşısında mərdliklə dayanır və mübarizə aparırdılar. Bu mübarizədə Naxçıvanın özünümüdafiə dəstələrinin xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Onlar əsl vətənpərvər kimi döyüşərək Azərbaycanın qədim diyarının işğalına yol vermədilər.

Ali Məclisin Sədri demişdir ki, erməni vəhşiliklərinin əsl mahiyyəti ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra açılmış, xalqımıza qarşı törədilmiş soyqırımlara dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Dahi şəxsiyyət torpaqlarımızın işğalının qarşısını almış, güclü dövlət və

*Ardı 2-ci səhifədə*

güclü ordu yaratmış, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması və erməni saxtakarlığının ifşası istiqamətində tədbirlər görmüşdür. Ulu öndərin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında ermənilərin Azərbaycan xalqına qarşı apardığı soyqırımı siyasəti dərindən təhlil olunmuşdur. Ümummilli liderimiz tərəfindən hər il 31 mart Azərbaycanlıların Soyqırımı Gününün ölkəmizdə unudulmaması haqqında qərar qəbul edilmişdir.

"Tarix ona görə yad olunur ki, ondan nəticə çıxarılsın. Ötən iki əsr ərzində xalqımızın məruz qaldığı qanlı faciələrin və soyqırımların təkrar olunmaması, itirilmiş və işğal olunmuş torpaqlarımızın geri qaytarılması naminə hər gün səylə çalışmalıyıq. Güclü xalq – güclü dövlət prinsipini əldə rəhbər tutaraq, gənclərimizi vətənpərvərlik, qəhrəmanlıq ruhunda tərbiyə edərək müstəqil Azərbaycanımızı daha da möhkəmləndirməliyik", – deyən Ali Məclisin Sədri soyqırımı qurbanlarının xatirəsini bir daha yad etmiş, çıxışını ümummilli liderimiz Heydər Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Xalqımıza qarşı əsrlər boyu müntəzəm surətdə ağır cinayətlər törədilmiş, məkrli niyyətlər gerçəkləşdirilmişdir. Öz ağırlığına, miqyasına və nəticələrinə görə bunlar həm də bəşəriyyətə qarşı cinayətlər kimi xarakterizə olunmalı, beynəlxalq hüquqi-siyasi qiymətini almalı, onun ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdır. Bunu təmin etmək bizim hamımızın ümumi vəzifəmizdir".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür*

## Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlar

***Erməni millətçilərinin Azərbaycan xalqına qarşı ərazi iddialarının, təcavüzünün və soyqırımı siyasətinin iki yüz ildən artıq tarixi vardır. İki əsr ərzində Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qalmışdır. Bu mənfur siyasətin məqsədi Azərbaycan torpaqlarının böyük bir qismini ələ keçirmək, azərbaycanlıları ata-baba torpaqlarından sıxışdırıb çıxarmaq, sonra həmin ərazilərdə "böyük Ermənistan" dövləti yaratmaqdı.***

Son iki əsrdə daşnakların həyata keçirdikləri soyqırımlarına ilk dəfə siyasi qiyməti ümummilli liderimiz Heydər Əliyev vermiş, 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev isə 2018-ci il yanvarın 18-də 1918-ci ildə azərbaycanlıların məruz qaldıqları soyqırımının 100 illiyi ilə bağlı Sərəncam imzalamış, bununla bağlı tədbirlərin keçirilməsi qərara alınmışdır. Hər iki tarixi sənəd erməni millətçilərinin müxtəlif illərdə törətdikləri soyqırımların dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir.

1918-ci ildə Bakı şəhərində törədilən mart soyqırımı son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinin ən qanlı nümunələrindən biridir. Bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaqla əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olub. 1905-1907-ci il qırğınları ilə məqsədlərinə nail ola bilməyən erməni daşnakları Birinci Dünya müharibəsinin yaratdığı imkanlardan, böyük dövlətlərin himayəsindən və köməyindən istifadə edərək 1918-1920-ci illərdə məqsədlərinə nail olmağa çalışırdılar. Bunun üçünsə hər cür vasitələrdən – vəhşiliklərdən belə, çəkinmirdilər.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1918-ci il soyqırımı əvvəlki illərdən fərqli olaraq daha geniş miqyas almışdır. Özlərini dünya ictimaiyyətinə "yazıq millət", "əzabkeş xalq" kimi qələmə verən ermənilər Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Salyanda, Göyçayda və başqa yerlərdə Azərbaycanlılara qarşı soyqırımı həyata keçirirdilər. Bakı soyqırımında azərbaycanlı qanına susamış A.Mikoyanın, Hamazaspın, Avetisyanın, Lalayanın quldur dəstələri xüsusi fəallıq göstərmişlər. Erməni daşnakları dinc əhaliyə üç gün divan tutmuş, 12 min azərbaycanlını qətlə yetirmiş, müsəlman məhəllələrini talayıb-çapmış, "İsmailiyyə" binasını yandırmış, bir neçə qəzet və jurnal redaksiyalarını, "Tağıyev teatrı"nı, "Təzə pir" məscidini dağıtmışlar. A.Mikoyanın "Qızıl Qvardiya"sı İçərişəhərdə yaralılar yatan xəstəxanaya od vurmuş, xəstələr yandırılmış, qaçanlar isə güllələnmişdir.

S.Şaumyan bolşevizm bayrağı altında qırğınlar törətsə də, baş vermiş qanlı faciələrdən vəcdə gələrək öz daşnak simasını gizlədə bilməyib yazırdı: "Şəhərlərimizin milli tərkibi bizi narahat edirdi. Biz mübarizənin arzuolunmaz xarakter alacağından qorxurduq. Biz hətta erməni polkunun yardımına belə əl atmalı olduq. Biz hətta onun köməyindən imtina etməyi mümkün hesab etmədik. Qələbə isə o qədər böyükdür ki, bu gerçəkliyə az kədər gətirir".

S.Şaumyanın başçılıq etdiyi erməni-daşnak qüvvələrinin soyqırımı törətməkdə əsas məqsədlərindən biri də sözsüz ki, müsəlman əhalinin var-dövlətini qarət etməkdən ibarət idi. Mart soyqırımı zamanı Bakı əhalisindən 400 milyon manatlıq daş-qaş və əmlak götürülmüşdü. Heç də təsadüfi deyil ki, Bakı Xalq Komissarları Soveti yıxılandan sonra Bakıdan gəmi ilə qaçarkən həbs olunan S.Şaumyana məxsus yüklərin içindən 80 milyon manata yaxın qızıl pul tapılmışdı.

Bakı ilə yanaşı, ermənilərin Azərbaycanın digər ərazilərində – Qərbi Azərbaycanda, Naxçıvanda, Zəngəzurda, azərbaycanlılar yaşayan başqa bölgələrdə onlara qarşı tarixdə görünməmiş qəddarlıq etmiş, azərbaycanlılara divan tutmuşlar. 1918-1920-ci illərdə azərbaycanlılara qarşı soyqırımı həm miqyas etibarilə, həm də vəhşiliyi ilə heyrət doğurur.

Erməni quldurları Bakıdakı milli qırğınla kifayətlənməyib, 1918-ci ilin yazında Şamaxıda, Quba-Xaçmaz bölgəsində, Salyanda, Lənkəranda və başqa yerlərdə azərbaycanlılara qarşı soyqırımı törətdilər. 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min nəfərdən çox azərbaycanlını qətlə yetirmiş, on minlərlə insanı isə öz torpaqlarından didərgin salmışlar. Daşnaklar həmin illərdə indiki Ermənistanda – qədim ata-baba yurdlarında yaşayan 565 min azərbaycanlının çoxunu məhv etmiş, qalanları isə ərazidən qaçmış, didərgin həyatı yaşamışlar.

Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvana yiyələnmək üçün daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür, yaşayış məntəqələrini yandırır və ərazini azərbaycanlılardan boşaltmağa çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədənlər içərisində Andranik Ozanyan xüsusi yer tutur. Bu qaniçən cəllad təkcə Gilançay və Əlincəçay vadilərində 62 kəndi viran qoymuş, əhalisini isə amansızlıqla qətlə yetirmişdir. Bu gün "milli qəhrəman" kimi İrəvanda heykəli ucaldılan Qaragin Njde Ərəzin, Camaldın, Yaycı, Aşağı Aza, Sabir Dizə, Düylün, Vənənd, Dəstə və Kotam kəndlərini dağıdıb, əhaliyə divan tutmuşdur. Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərmiş Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, erməni vəhşiliklərinin bilavasitə şahidi olmuş və onları qələmə almışdır. Onun "Qanlı günlərimiz" əsərindən – gündəlik qeydlərindən aydın olur ki, 1918-1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən 74 min azərbaycanlı ən vəhşi üsullarla öldürülmüşdür.

Araşdırmalar nəticəsində aydın olmuşdur ki, erməni hərbi birləşmələri 1914-1916-cı illərdə Azərbaycanın cənubunda 150 min, Şərqi Anadoluda, Azərbaycan türklərinin yaşadıqları bölgədə 200 min, 1918-1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər. Bütün bunlarla yanaşı, naxçıvanlılar mərdliklə döyüşmüş, Naxçıvanın erməni işğalına düşməsinə yol verməmişlər. Bununla əlaqədar 20 tabor yaradılmış, onlar silahlandırılmış, III Kalbalıxanın başçılığı ilə 500 nəfərdən ibarət süvari dəstə böyük rəşadət göstərmişdir. Onlar erməni daşnaklarına dəfələrlə layiqli cavab vermiş, ərazidən qovmuşlar. Naxçıvan əhalisinin qəhrəmanlığını Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri ilə yanaşı, düşmən mövqedə dayanan, ərazini işğal etməyə cəhd göstərən erməni rəhbərləri də etiraf etməyə məcbur olmuşlar. Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Fətəli xan Xoyski parlamentin iclasında Naxçıvanın qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. Nəsib bəy Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında qeyd etmişdir ki, Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi. 1919-cu il dekabrın 22-də Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında yenidən bu məsələyə qayıdaraq demişdir: ***"İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll etdilər, onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..."***

Arxiv sənədlərindən məlum olur ki, o dövrdə Naxçıvanda 6 minədək üzvdən ibarət silahlı dəstə olmuşdur. Onlar döyüş keyfiyyətlərinə görə, ingilislərin də təsdiq etdiyi kimi, erməni qoşun hissələrindən heç də geri qalmırdı. Ermənistanın birinci baş naziri Ovanes Kaçaznuni 1923-cü ildə etiraf etmişdi ki, "... inzibati tədbirlərlə müsəlman rayonlarında qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın salmağa məcbur olduq və hətta uğursuzluğa uğradıq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik".

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətini davam etdirmişlər. XX əsrin 20-30-cu illərində, eləcə də müharibədən sonrakı dövrdə ermənilər azərbaycanlıların həbs edilərək Sibirə göndərilməsində, xalq düşməni adı altında güllələnməsində, din xadimlərinin və görkəmli ziyalıların məhv edilməsində, əsassız repressiyaların günahsız insanlara qarşı tətbiq olunmasında çox böyük rol oynamışdır. Azərbaycan xalqının qatı düşmənləri tərəfindən onun ən yaxşı övladlarının siyasi qərəzçiliklə məhv edilməsi belə bir kədərli faktla sübut olunur ki, Azərbaycandakı 51 rayondan 31-də Xalq Daxili İşlər Komissarlığı rayon bölməsinin başında ermənilər dururdular.

Rəsmi məlumatlara görə, 1937-ci ildə Azərbaycanda 100 min nəfərdən artıq insan sürgün edilmiş, 3 min kəndli məhv edilmiş, "xalq düşməni" kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdir. Hüquq-mühafizə orqanları sistemində ermənilərin çoxluq təşkil etməsi repressiyanın azərbaycanlılara qarşı daha dəhşətli formada həyata keçirilməsi ilə nəticələnmişdi.

Müharibə illərində A.Mikoyan İ.Stalini azərbaycanlıların guya xəyanət edə biləcəklərinə inandıra bilmiş və 1942-ci il dekabrın 7-də Azərbaycan əhalisinin hamılıqla Orta Asiya və Qazaxıstana sürgün edilməsi haqqında məxfi qərar verilməsinə nail olmuşdular. Lakin respublika rəhbərliyinin göstərdiyi səylər İ.Stalini fikrindən daşındırmış, cinayətin həyata keçirilməsinə imkan verməmişdir.

Xəbis niyyətlərindən əl çəkməyən erməni daşnakları müharibədən sonrakı mərhələlərdə Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyasına nail olmuşlar. 1948-1953-cü illərdə 144 min 654, 1988-1992-ci illərdə isə 250 min soydaşımız indiki Ermənistan ərazisindən, azərbaycanlıların tarixən yaşadıqları ata-baba yurdlarından zorla çıxarılmışdır.

*Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirir.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirlər keçirilib



Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının Tənənəm kəndində keçirdiyi tədbirdə əvvəlcə soyqırımı qurbanlarının xatirəsi yad edilib. Sonra təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev məruzə edərək bildirib ki, tarixin müəyyən mərhələlərində ermənilər tərəfindən Azərbaycan xalqına qarşı soyqırımı cinayətləri törədilib. 1918-ci ilin mart soyqırımı xalqımız üçün ən faciəli səhifələrdən biri olub. Təkcə 1905-1907-ci illərdə və 1918-1920-ci illərdə bir milyondan çox azərbaycanlı qətlə yetirilib.

Vurğulanıb ki, ötən əsrin 90-cı illərində ermənilər yaranmış vəziyyətdən istifadə edərək Azərbaycana qarşı növbəti ərazi iddialarını genişləndiriblər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi törədilib, Dağlıq Qarabağ və ona bitişik rayonlar işğal edilib. Bu gün ermənilər əzəli Azərbaycan torpaqlarını hələ də işğal altında saxlayırlar.

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri qeyd edib ki, bu vəhşilik və vandalizm hadisələri uzun illər hüquqi-siyasi qiymətini almayıb. Bu mənada, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1998-ci il 26 mart tarixdə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı xalqımıza qarşı erməni vandalizminin ifşa olunması, soyqırımı faktlarının dünya ictimaiyyətinə çatdırılması, 31 mart hadisələrinə siyasi-hüquqi qiymət verilməsi baxımından mühüm tarixi sənəddir.

Tədbirdə Tənənəm kənd ərazi ilk partiya təşkilatının sədri Nazim Eyvazov, kənd tam orta məktəbinin tarix müəllimi Şükür İsmayılov və digərləri çıxış ediblər. Bildirilib ki, bu gün ulu öndər Heydər Əliyevin siyasi-ideoloji xəttini uğurla davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyev xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirir.

***1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümü münasibətilə Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin 220-ci məşğələsi keçirilib.***



Soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra məşğələni giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. Çıxışda 1918-ci il martın 31-də baş vermiş qanlı hadisənin ermənilərin xalqımızın əleyhinə törətdikləri cinayət olduğu və bu tarixin yaddaşımızdan heç vaxt silinməyəcəyi vurğulanıb. Rektor tarixi hadisələrin gələcək nəsillərə ötürülməsi istiqamətində görülən tədbirlərin əhəmiyyətini diqqətə çatdırıb və tələbələrə xalqımızın başına gətirilən müsibətlərin dünyaya çatdırılmasında fəal olmalarının vacibliyini bildirib.

Universitetin tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov qeyd edib ki, azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir. Təkcə ötən əsrdə Azərbaycanın əhalisi dörd dəfə – 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən insan hüquqlarının pozulmasına, qeyri-insani rəftarla, insan ləyaqətini alçaldan hərəkətlərlə müşayiət olunan soyqırımına və deportasiyaya məruz qalıb.

Sonda soyqırımı haqda film nümayiş olunub.

**Xəbərlər şöbəsi**

## *“Azərbaycanlıların soyqırımı: səbəbləri, nəticələri və dərsləri”* mövzusunda elmi konfrans keçirilib



***Martın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən “Azərbaycanlıların soyqırımı: səbəbləri, nəticələri və dərsləri” mövzusunda elmi konfrans keçirilmişdir. AMEA Naxçıvan Bölməsində keçirilən konfransı bölmənin sədri, akademik İsmayıl Hacıyev açmışdır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirmişdir ki, “Böyük Ermənistan” dövləti yaratmaq üçün hər cür vasitələrə əl atan erməni şovinistləri öz havadarları ilə birlikdə azərbaycanlılara qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə həyata keçiriblər. 1918-ci il soyqırımı da erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları soyqırımı siyasətinin davamı, tarixdə erməni qəddarlığının daha bir təzahürüdür.

Vurğulanmışdır ki, erməni daşnaklarının soyqırımları Azərbaycan əhalisinin azadlıq əzmini və müqavimətini qıra bilməmiş, düşmənə layiqli cavab verilmişdir. Bu mübarizədə Naxçıvanın özünümüdafiə dəstələri də əsl vətənpərvər kimi döyüşmüş, Naxçıvanın işğal olunmasına imkan verməmişlər.

Diqqətə çatdırılmışdır ki, erməni vəhşiliklərinə əsl siyasi qiymət ulu öndərimiz Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli Fərmanında verilmişdir. Həmin fərmana uyğun olaraq hər il ölkəmizdə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi yad edilir. Bu tarix həm də xalqımızın əsarətə qarşı mübarizə, Vətənin müdafiəsi, ərazi bütövlüyümüz uğrunda qəhrəmanlıq tariximiz kimi xatırlanır.

“Muxtar respublikada soyqırımı qurbanlarının əziz xatirəsi əbədiləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Naxçıvan şəhərində Xatirə Muzeyi və Bayraq Meydanında Xatirə kompleksi yaradılmışdır”, – deyən Rəhman Məmmədov qeyd etmişdir ki, bununla yanaşı, muxtar respublikanın tarixdiyarşünaslıq muzeylərində də azərbaycanlıların soyqırımlarına həsr olunmuş guşələr təşkil edilmişdir.

Bildirilmişdir ki, 1918-ci il azərbaycanlıların soyqırımından 100 il ötür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 18 yanvar tarixli Sərəncamına əsasən ölkəmizin hər yerində 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı tədbirlər keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı”na uyğun olaraq muxtar respublikada da bir sıra tədbirlər keçirilmişdir. Belə ki, martın 30-da Xatirə kompleksində soyqırımı qurbanlarının əziz xatirəsi yad edilmiş, ümumtəhsil məktəbləri və Heydər Əliyev adına Hərbi Lisey üçün Akademiyanın Naxçıvan Bölməsində “31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür” mövzusunda interaktiv dərs keçilmişdir. Bununla yanaşı, gənclərin Xatirə Muzeyinə ekskursiyaları təşkil edilir, “Gənclik” Mərkəzində azərbaycanlıların soyqırımı mövzusunda sənədli filmlər nümayiş olunur, “Naxçıvan” ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının azərbaycanlıların soyqırımına həsr olunmuş nömrəsinin hazırlanması üzərində iş aparılır.

Konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdirləri – tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyevin “Azərbaycanlıların soyqırımı”, tarix üzrə fəlsəfə doktoru İlhami Əliyevin “Ümummilli lider Heydər Əliyev və azərbaycanlıların soyqırımı və deportasiya məsələsi”, tarix üzrə fəlsəfə doktoru Asəf Orucovun “1905-1907-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınlar”, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilovun “1948-1953-cü illərdə azərbaycanlıların deportasiyası və onun ağır nəticələri”, aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin “1918-1920-ci illərdə ermənilərin Naxçıvanda törətdiyi soyqırımlar”, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədovun “XX əsrin əvvəllərində ermənilərin törətdiyi qırğın və soyqırımlar bədii ədəbiyyatda” mövzularında çıxışları dinlənilmişdir.

Vurğulanmışdır ki, bu gün müstəqil Azərbaycan dövlətinin gündəngünə inkişaf edib möhkəmlənməsi və hərbi qüdrətini artırması 31 mart soyqırımı kimi faciələrin bir daha baş verməməsi üçün ən etibarlı təminatdır. Ölkəmizin ərazi bütövlüyünü təmin etmək, Ermənistanın işğalçılıq siyasətinə birdəfəlik son qoymaq üçün dövlətimizin bütün imkanları vardır. 2017-ci il oktyabrın 18-də Naxçıvan Muxtar Respublikasında keçirilən hərbi parad da ordumuzun qüdrətini bir daha nümayiş etdirdi. Güclü ordumuz Azərbaycan dövlətinin və xalqının gələcəkdə öz hərbi-siyasi tarixinə yalnız möhtəşəm zəfərlər yazacağına zəmanət verir.

**✍ Səbuhi HƏSƏNOV**

## *“31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür”* mövzusunda interaktiv dərs



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı”na uyğun olaraq AMEA Naxçıvan Bölməsi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında “31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür” mövzusunda interaktiv dərs keçilib.



*Naxçıvan şəhər 8 nömrəli tam orta məktəb*



*Kəngərli rayonunun Qarabağlar kənd 1 nömrəli tam orta məktəbi*

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə keçilən növbəti açıq dərsi bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov aparıb. O bildirib ki, ermənilərin Naxçıvanda qətliamlar törətməsinə Andranik Ozanyan, Dro, Njde, Doluxanov və digər cəlladlar başçılıq ediblər. Təkcə Andranikin dəstəsi 4 min piyada, 2 min süvaridən ibarət olub. Dəstə Naxçıvan şəhərində, o cümlədən Babək, Sədərək, Şahbuz, Culfa rayonlarında və digər yaşayış məntəqələrində vəhşiliklər törədib.

Yaşar Rəhimov uzun müddət Naxçıvanı işğal etməyə cəhd göstərən erməni daşnaklarının bu xülyalarını reallaşdıra bilmədiklərini, məğlub olaraq geri çəkildiklərini vurğulayıb. Bildirib ki, bölgə əhalisi çətinliklərə, təqiblərə, müsibətlərə sinə gərərək erməni silahlı quldur dəstələrinə layiqli cavab veriblər.

Şagirdlərin diqqətinə çatdırılıb ki, ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 26 mart tarixli “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanı onun milli tarixi yaddaşımızın bərpası, faciəyə siyasi-hüquqi qiymət verilməsi baxımından mühüm xidmətlərindən biridir.

Vurğulanıb ki, bununla yanaşı, Prezident cənab İlham Əliyevin “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” 18 yanvar 2018-ci ildə imzaladığı Sərəncam Azərbaycan xalqının başına gətirilən soyqırımı cinayətlərinin mahiyyətinin açılması və pərdəarxası məqamların araşdırılaraq təhlil edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Açıq dərs muxtar respublikanın 210 ümumtəhsil məktəbində izlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin mart ayında bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2018-ci il 15 mart tarixli qərarları ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Həmkarlar İttifaqları Şurası və Naxçıvan Muxtar Respublikasının Sahibkarlar Konfederasiyası arasında 2018-2019-cu illər üçün Baş Kollektiv Saziş bağlanmış, Naxçıvan Muxtar Respublikasında bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxemi və məbləğləri, “Naxçıvan Muxtar Respublikasında müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları” təsdiq edilmişdir. Müvafiq Qaydalara görə ciddi hesabat blankları təşkilati-hüquqi formasından asılı olmayaraq, təşkilatların və fərdi sahibkarların maliyyə-təsərrüfat fəaliyyətində əmtəə-pul dövriyyəsini əks etdirən, forma və rekvizitləri müəyyən olunmuş qaydada təsdiq edilən, xüsusi seriya və nömrəsi olan ilkin uçot sənədidir. Ciddi hesabat blanklarının istifadəsinə nəzarət öz səlahiyyətləri çərçivəsində Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi tərəfindən həyata keçirilir.

Bundan əlavə, Nazirlər Kabinetinin eyni tarixli digər qərarları ilə “Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin Ehtiyat Fondunun vəsaitindən istifadə Qaydaları”nda, “Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə və “Naxçıvan Muxtar Respublikası vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nda dəyişikliklər edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Mərkəzi Seçki Komissiyasında seminar-treninq olub



***Martın 30-da Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən seçki dairələrinin veb-kameralar quraşdırılmış seçki məntəqələrinin məntəqə seçki komissiyalarının sədr və katibləri, həmçinin seçkilərə 5 gün qalmış yaradılması nəzərdə tutulan qapalı seçki məntəqələrinin sədrləri ilə seminar-treninq keçirilib.***

Seminarı giriş sözü ilə açan Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov bu il aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkilərinə hazırlıqla əlaqədar görülən işlərdən danışıb.

Daha sonra muxtar respublikada fəaliyyət göstərən dairə seçki komissiyalarının sədrləri seçki dairələri üzrə seçki məntəqələrinin sayı, seçicilərin ümumi sayı, mülki və qapalı seçki məntəqələrində səs verəcək hərbi qulluqçular barədə məlumat veriblər.

Məhərrəm Qasımov çıxışında bildirib ki, seçkilərin keçirilməsində şəffaflıq ən mühüm prinsiplərdən biridir. Bu məqsədlə ölkəmizdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunmuş nailiyyətlərdən də geniş istifadə olunur ki, bu da seçki prosesini əvvəldən axıradək izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa və beləliklə, aşkarlığın daha dolğun təminatına şərait yaradır. Səsvermə günü istənilən internet istifadəçisi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi saytına daxil olmaqla, səsvermənin gedişini canlı izləyə bilər. Ümumiyyətlə, seçki məntəqələrində veb-kameraların quraşdırılması Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının “Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsinə dair Qaydalar”a uyğun olaraq təşkil edilmişdir.

Daha sonra Mərkəzi Seçki Komissiyasının sədri seçki günü məntəqə seçki komissiyaları üzvlərinin vəzifələri barədə məlumat verərək bildirib ki, bu vəzifələrin düzgün icra edilməsi və səsvermə protokollarının qanunauyğun doldurulması, səsvermənin nəticələrinin müəyyən olunması baxımından çox vacibdir. Məhərrəm Qasımov çıxışında vətəndaşların səsvermə hüququndan istifadə edə bilməsi, seçkilərin mütəşəkkil və demokratik şəkildə keçirilməsi, səsvermə kabinələrinin təşkili, təkrar səsvermə və başqa seçici əvəzindən seçki bülleteni doldurmaq cəhdlərinin qarşısının alınması, seçki bülletenini müstəqil doldurmaq imkanı olmayan bəzi vətəndaşların digər şəxsin köməyindən istifadə etməsi üçün şərait yaradılması ilə bağlı məntəqə seçki komissiyası üzvlərinin qarşısında duran vəzifələrdən danışıb.

Seminarda seçki məntəqəsində səslərin hesablanması barədə məlumat verən Mərkəzi Seçki Komissiyasının katibi Elnur Eyvazov bildirib ki, səsvermə müddəti başa çatdıqda seçki məntəqəsində yalnız səslərin hesablanmasını izləmək səlahiyyəti olan şəxslər qala bilər.

Çıxışda istifadə edilməmiş seçki bülletenlərinin ləğvi, seçki qutularının açılması, daşınan və daşınmaz seçki qutuları üzrə səslərin hesablanma qaydaları, səsin hansı halda etibarsız hesab edilməsi, qanuniləşdirilməsi, etibarsız səslərin ayrıca yığılıb bağlanması qaydaları barədə ətraflı məlumat verilib.

6 saylı Culfa-Babək Dairə Seçki Komissiyasının üzvü Babək Məmmədov səsvermənin nəticələrinə dair yekun protokolunun doldurulması qaydalarını izah edərək diqqətə çatdırıb ki, məntəqə seçki komissiyasının protokolu Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış üç nüsxədən ibarət xüsusi dövlət sənədidir. Nüsxələrdən birincisi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına, ikincisi müvafiq dairə seçki komissiyasına təhvil verilir. Üçüncüsü isə məntəqədə məlumat lövhəsindən asılır. Sonra məntəqə seçki komissiyası protokolunun doldurulma qaydası slaydlarla bəndlər üzrə ətraflı izah edilib. Protokolun doldurulma qaydasının komissiya üzvləri tərəfindən tam mənimsənilməsi üçün hər bir bənd üzrə izahlar verilib, seçki komissiyaları üzvlərinin sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

# Seçki marafonu

## 11 aprel – Azərbaycan Respublikası Prezidentinin seçkiləri günüdür

**Prezident seçkiləri - 2018**

**Azərbaycan Respublikasında seçkilər seçki komissiyaları tərəfindən təşkil edilir və keçirilir.**

**Hörmətli seçicilər!**

Seçkilərin keçirilməsinin təşkil və təmin edilməsini kollegial orqan olan seçki komissiyaları həyata keçirir.

Seçki komissiyaları Azərbaycan Respublikasının Seçki Məcəlləsinin müəyyən etdiyi qaydalara uyğun olaraq təşkil edilir.

Azərbaycan Respublikasında seçki komissiyaları seçkilərin hazırlanmasını, keçirilməsini, səsvermənin nəticələrinin və seçkilərin yekunlarının müəyyən edilməsini, vətəndaşların seçki hüquqlarının həyata keçirilməsini və müdafiəsini təmin etməklə, həmin hüquqlara riayət olunmasına nəzarət edir.

Seçki komissiyaları seçki prosesinin həyata keçirilməsində tam sərbəstdirlər və dövlət orqanlarının, bələdiyyə qurumlarının, ictimai-siyasi təşkilatların, eləcə də onların vəzifəli şəxslərinin seçki komissiyalarının fəaliyyətinə müdaxilə etməsinə yol verilmir.

**Dövlət orqanlarının, bələdiyyə qurumlarının, ictimai-siyasi təşkilatların, eləcə də onların vəzifəli şəxsləri tərəfindən seçki komissiyalarının fəaliyyətinə müdaxilə edilərsə, həmin şəxslər Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati və ya cinayət məsuliyyətinə cəlb edilirlər.**

Seçki komissiyaları seçicilərə seçkilərin hazırlanmasının və keçirilməsinin gedişi, nəticələr haqqında məlumat verilməsini dövlət avtomatlaşdırılmış informasiya sistemilə təmin edir.

**Seçki komissiyalarının qəbul etdiyi qərarlar və aktlar müvafiq ərazidə fəaliyyət göstərən dövlət orqanları, bələdiyyə qurumları, ictimai-siyasi təşkilatlar, referendum üzrə təşviqat qrupları, vəzifəli şəxslər və seçicilər üçün məcburidir.**

Eləcə də yuxarı seçki komissiyalarının qərarları aşağı seçki komissiyaları üçün məcburidir.

Seçkilərin təşkili və keçirilməsi zamanı seçki komissiyaları və onların üzvləri, digər vəzifəli şəxslər öz fəaliyyətlərində aşağıdakı tələblərə əməl etməlidirlər:

✓ seçkilərin təşkili və keçirilməsində qanuna əsaslanmalıdırlar, qanunlar tam, bərabər və qərəzsiz tətbiq olunmalıdır;

✓ qanun çərçivəsində hər bir siyasi partiyaya, namizədə, seçiciyə və seçki kampaniyasının digər iştirakçılarına ədalətli və bərabər münasibət bəsləməlidirlər;

✓ namizədə, siyasi partiyalara, seçiciyə münasibətdə neytral və qərəzsiz olmalıdırlar;

✓ hər hansı bir namizədin, siyasi partiyanın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi başa düşülə bilən hərəkətlərə yol verməməlidirlər;

✓ seçkilərin təşkilatçısı kimi, xidməti və şəxsi mənafelər arasında ziddiyyətlərə yol verməməlidirlər;

✓ seçki kampaniyasında iştirak edənlərdən heç bir hədiyyə və digər bəxşişlər almamalıdırlar;

✓ qanunsuz, onların vəzifələri ilə ziddiyyət təşkil edən göstərişləri icra etməməlidirlər;

✓ onların vəzifələri ilə ziddiyyət təşkil edən heç bir hərəkətdə (aksiyada) iştirak etməməlidirlər;

✓ hər hansı bir namizədə, siyasi partiyaya qarşı qərəzli mövqeyin yaranmasına gətirib çıxara bilən fəaliyyətdə (özəl fəaliyyət də daxil olmaqla) iştirak etməməlidirlər;

✓ seçkilərlə əlaqəsi olan heç bir siyasi mübahisə zamanı mövqe bildirməməlidirlər;

✓ siyasi mahiyyət daşıyan seçki məsələləri ilə əlaqədar heç bir seçici ilə münasibətdə olmamalıdırlar;

✓ heç bir siyasi partiyanın rəmzlərini gəzdirməməlidirlər, yaymamalıdırlar, heç bir siyasi partiyaya hansısa başqa yolla münasibət bildirməməlidirlər;

✓ seçki komissiyalarının iclasları istisna olmaqla, qəbul olunan qərarları öz mülahizələri üzrə şərh etməməlidirlər;

✓ hər bir qərarın qəbul edilməsinə təsir göstərə bilən məlumatın əldə edilməsini mümkün etməlidirlər;

✓ qanun əsasında seçicilərə, seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslərə sənədlərlə və məlumatlarla tanış olmaq üçün şərait yaratmalıdırlar;

✓ məlumatların yığılmasına, araşdırılmasına, birmənalı və aydın anlaşılmaqla məntəzəm dərc edilməsinə şərait yaratmalıdırlar;

✓ seçicilərin seçkilərdə iştirakı üçün imkan dairəsində bütün tədbirləri görməlidirlər;

✓ seçicilər tərəfindən seçki kampaniyasının düzgün başa düşülməsi üçün tədbirlər görməlidirlər;

✓ səs vermək üçün xüsusi şəraitin yaradılması tələb olunan əlil və ya digər fiziki qüsuru olan, uzaq və ya yolu çətin keçilən yerlərdə yaşayan seçicilərin seçkilərdə iştirakı üçün bütün imkanları yaratmalıdırlar.

**Naxçıvan Muxtar Respublikası**
**Mərkəzi Seçki Komissiyası**

***Şahbuz rayonundakı "Araz" kinoteatrında rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyi, Mədəniyyət və Turizm Şöbəsinin birgə təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbir keçirilib.***

## Şahbuz rayonunda gənclərin iştirakı ilə tədbir keçirilib



Gənclərin iştirakı ilə keçirilən tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi vəzifəsini icra edən İdris Qəhrəmanov, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyinin sədri Vüqar Muradov çıxış edərək erməni vandallarının xalqımıza qarşı törətdikləri ən dəhşətli faciələrdən olan 31 mart soyqırımı barədə danışıblar.

Çıxışlardan sonra məktəblilər soyqırımı ilə bağlı şeirlər söyləyiblər. Sonda ermənilərin Naxçıvanda törətdikləri vəhşiliklərdən bəhs edən "Soyqırımı" sənədli filmi nümayiş olunub. Tədbirdə 150 nəfərə yaxın gənc iştirak edib.

## Şeir müsabiqəsinin muxtar respublika mərhələsi yekunlaşıb



***Naxçıvan şəhərindəki 1 nömrəli tam orta məktəbdə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri arasında bədii qiraət üzrə şeir müsabiqəsinin muxtar respublika mərhələsi keçirilib.***

Müsabiqənin keçirilməsində məqsəd soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, məktəblilərdə vətənpərvərlik, Vətənə məhəbbət hisslərinin yüksəldilməsi, istedadlı şagirdlərin üzə çıxarılmasıdır. Müsabiqənin birinci mərhələsi bu ilin 12-16 mart tarixlərində muxtar respublikanın şəhər və rayonlarında təşkil edilib. Birinci mərhələdə qalib gələn şagirdlər ikinci mərhələdə iştirak etmək hüququ qazanıblar.

Muxtar respublika mərhələsində münsiflər heyətinin qərarına əsasən Naxçıvan Qızlar Liseyinin şagirdi Aytac Hacıyeva qalib adını qazanıb. Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdi Əminəxatın Qasımova, Babək rayon Kərimbəyli kənd tam orta məktəbinin şagirdi Bahar Mehrəliyeva ikinci, Culfa rayon Gülüstan kənd tam orta məktəbinin şagirdi Ramin Ələkbərov, Kəngərli rayon Böyükdüz kənd tam orta məktəbinin şagirdi Şahin Quliyev isə üçüncü olublar. Bir qrup şagird isə həvəsləndirici yerlərə layiq görülüb.

Qaliblərə təşkilatçılar tərəfindən diplom, fəxri fərmanlar və oxunması zəruri olan kitablar təqdim olunub.

Müsabiqə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Qeyd edək ki, tədbirdə Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar 16 mart 2018-ci il tarixdə keçirilmiş inşa yazı müsabiqəsinin qalibləri də mükafatlandırılıblar.

## Qaliblər müəyyənləşib



***Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Naxçıvan şəhər tam orta məktəblərinin şagirdləri arasında rəsm müsabiqəsi keçirilib.***

Müsabiqədə 15 tam orta məktəbdən 26 şagirdin rəsm əsəri sərgilənib. Münsiflər heyətinin verdiyi qərara əsasən 14 nömrəli tam orta məktəbin şagirdi Məhəmməd Həsənli qalib adını qazanıb. 17 nömrəli tam orta məktəbin şagirdi Günel Hacıyeva ikinci, 3 və 10 nömrəli tam orta məktəblərin şagirdləri Seymur İbrahimli və Murad Vəliyev isə üçüncü olublar.

Qaliblər təşkilatçıların diplom və fəxri fərmanları ilə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına

### *2018/2019-cu tədris ili üçün əyani təhsil üzrə tələbə qəbulu qaydaları*

Əyani təhsil: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 2018/2019-cu tədris ili üçün əyani təhsil üzrə qəbula namizədlər

- boyu 170 santimetrdən az olmayan,
- tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan,
- 15.09.2018-ci ilədək 17 yaşı tamam olan,
- yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 15.09.2018-ci ilədək 23 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Akademiyaya qəbul olmaq arzusunda olanlar Fövqəladə Hallar Nazirliyinin Xüsusi həkim ekspertiza komissiyasından və Fövqəladə Hallar Nazirliyi tərəfindən qəbul edilmiş qaydalara müvafiq olaraq fiziki hazırlıq və seçmə komissiyalarında sınaqdan keçməlidirlər.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı test imtahanlarında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Qəbul imtahanı test üsulu ilə I ixtisas qrupuna daxil olan fənlər üzrə keçirilir.

Test imtahanlarının keçirilməsi qaydaları ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının internet saytında və kütləvi informasiya vasitələrində verilən elanlarda tanış olmaq olar.

Akademiyaya qəbul olunan şəxslər təhsil müddətində yemək, geyim forması və yataqxana ilə təmin olunur, təqaüd alırlar.

Akademiyada təhsil müddəti 4 ildir.

Tədris Azərbaycan dilində aparılır.

Akademiyanın məzunlarına müvafiq olaraq Yanğın təhlükəsizliyi mühəndisliyi və Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi ixtisasları üzrə bakalavr ali-peşə ixtisas dərəcəsi verilir. Onlar zabit və ya orta rəis heyəti rütbələri verilməklə Fövqəladə Hallar Nazirliyi sistemində vəzifələrə təyinat alırlar.

Akademiyaya qəbul olmaq istəyənlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- tərcümeyi-hal (abituriyentin şəxsən özü tərəfindən yazılmış);
- şəxsiyyət vəsiqəsinin və doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;
- hərbi biletin və ya hərbi xidmətə çağırış məntəqəsinə təhkimedilmə vəsiqəsinin əsli və notarial qaydada təsdiq olunmuş surəti;
- tam orta məktəbdən, işlədiyi təqdirdə iş yerindən və ya hərbi hissədən xasiyyətnamə;
- tam orta təhsil haqqında sənədin əsli və notarial qaydada təsdiq olunmuş surəti, yaxud tam orta məktəbin buraxılış sinfində oxuması haqqında müəyyən olunmuş formada arayış;
- yaşayış yerindən arayış (daimi qeydiyyat yerində yaşamadığı halda);
- xüsusi həkim ekspertiza komissiyasına təqdim olunması üçün yaşayış yeri üzrə ruhi-əsəb, narkoloji, dəri-zöhrəvi, vərəm dispanserlərindən və QİÇS haqqında arayışlar, qeydiyyat yeri üzrə poliklinikaya son 5 il ərzində müraciətləri haqqında qısa epikriz;
- 4 ədəd 6x4 santimetr ölçüdə rəngli fotoşəkil (ağ fonda, tünd rəngli pencəkdə).

***Sənədlər 2018-ci il aprelin 1-dən 30-dək (bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində (Naxçıvan şəhəri, Ə.Əliyev küçəsi 25) qəbul ediləcək.***

***Əlaqə telefonu: (036) 545-41-66***

## Elan

Naxçıvan Müəllimlər İnstitutunda "Təhsil kurikulumları: praktik tətbiqlər" mövzusunda respublika elmi konfransı keçiriləcəkdir. Konfransda aşağıdakı bölmələr üzrə məruzələr dinləniləcəkdir:

*1. Ümumtəhsil məktəblərində şəxsiyyətyönümlü kurikulumların tətbiqi yolları;*

*2. Nəticəyönümlü kurikulumların tətbiqi;*

*3. Kurikulumların tətbiqində dərs nümunələri;*

*4. Məktəbəqədər müəssisələrdə kurikulumların tətbiqi yolları;*

*5. Təfəkküryönümlü kurikulumların tətbiqi.*

Konfransda respublikanın ali, orta təhsil və məktəbəqədər müəssisələrinin əməkdaşları məruzələrlə çıxış edə bilərlər. Məruzələrin adı bölmələrin adı ilə üst-üstə düşməməlidir.

Tezislər konstruktiv, konkret və konfransın mövzusuna uyğun olmalıdır və 1 santimetr intervalla, 14 şriftlə (Times New Roman), formatı – soldan, sağdan, yuxarıdan, aşağıdan 2 santimetr olmaq şərti ilə 1-3 səhifə həcmində təqdim olunmalıdır. Müəlliflərin adı, soyadı, elmi dərəcəsi, iş yeri və e-mail ünvanı məqalənin adının altında yazılmalıdır.

Konfransın materialları məcmuə şəklində nəşr olunacaqdır.

Məruzələr 16 aprel 2018-ci il tarixədək Naxçıvan Müəllimlər İnstitutunun elmi hissəsində qəbul olunur.

Konfrans 20 aprel 2018-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Müəllimlər İnstitutunun akt zalında keçiriləcəkdir.

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 31.***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: (+99036)545-32-02***
***Fax: (+99036)545-32-02***

**İtmişdir**

Qasımova Əsmər Rza qızının adına Naxçıvan şəhərindəki 2 nömrəli uşaq musiqi məktəbi tərəfindən verilmiş şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 249